## THE ESSENCE, GOALS AND DIRECTIONS OF PEDAGOGICAL DIAGNOSTICS IN MODERN EDUCATION

***Bayramova Ziyafat Vilayat, Salakhova Kamala Zakir***

***Summary***

Currently, pedagogical diagnostics is considered as part of the teacher's professional activity. The impact of its nature, content, methods, characteristics and conditions on the modern educational process determines the most important directions for improving educational work and establishing a working process in schools.

Today, the development and improvement of the theoretical aspects of pedagogical diagnostics in the system of vocational education is one of the topical scientific and theoretical issues from the point of view of pedagogy and scientific research. In modern conditions, the requirements for the quality indicators of schoolchildren and professional teachers make it possible to specify the emerging practical and scientific and pedagogical tasks in accordance with the requirements of the time.

***Rəyçi:dosent Quliyev Allahverdi***
***Ümumi pedaqogika kafedrasının 11 yanvar 2023-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olmatarixi 02 fevral 2023-cü il***

**UOT:378.**

## AZƏRBAYCANIN ALİ TƏHSİL SİSTEMİNDƏ STRUKTUR DƏYİŞİKLİKLƏRİ

***Məmmədova Aytən Rafət qızı***
***Gəncə Dövlət Universiteti***
***Ayten.memmedova@inbox.ru***

**Xülasə:** *Təhsili beynəlxalq standartlara uyğunlaşdırmaq, müstəqil Azərbaycan Respublikasının təhsilini Avropa məkanına inteqrasiya etdirmək zərurəti ali hətsilin məzmununda əsaslı dəyişikliklərə səbəb oldu.*

*Azərbaycanda ali təhsilin nüfuzu yüksəkdir. Ali məktəblərin tələbə qəbulu üzrə imkanları praktiki olaraq onlara olan tələbə tam cavab verir. Yüksək müsabiqə isə təhsil resurslarının çatışmaması ilə deyil, ali məktəbin və ya ixtisasın cəlbediciliyi ilə izah olunur.*

*Ali təhsilin iki pilləli sistemi çərçivəsində mütəxəssis hazırlığında fənlərarası inteqrasiyanı təmin etmək daha asan olur. Bakalavr hazırlığı bir ixtisas sahəsində həyata keşirilir. Magistr proqramı isə müxtəlif sahələrin qovşağında yaradıldığından, əmək bazarındakı dəyişikliklərə daha həssas olur.*

**Açar sözlər:** ali məktəb,bolonya sistemi,təhsil,dövlət,magistratura pilləsi, beynəlxalq

**Ключевые слова:** высшее образование,Болонская система, образование, государственный, магистерский уровень, международный

**Key words**: university, Bologna system, education, global, state, master's level, international

Azərbaycanda təhsilin çox dərin kökləri olsa da, o, yalnız XX əsrin 20-ci illərindən başlayaraq hərtərəfli inkişaf etmişdir. Çox qısa bir müddət ərzində ölkədə savadsızlıq tam aradan qaldırılmış, geniş təhsil müəssisələri şəbəkəsi yaradılmışdı.

XX əsrin son on illiyi SSRİ-nin dağılması, milli dirçəliş ideyasının güclənməsi ilə səciyyələndi. Müstəqilliyini əldə edən Azərbaycan, digər postsovet respublikaları kimi, çoxlu sayda iqtisadi, siyasi və ideoloji problemlərlə üz-üzə qaldı. İqtisadi sahədə böhran istehsal

həcminin azalmasına, hiperinfilyasiyayavə əhalinin real gəlirlərinin aşağı düşməsinə səbəb oldu.

Ötən əsrin 90-cı illərində respublikada yaranan yeni iqtisadi münasibətlər maddi və mənəvi istehsal sferasına tamamilə yeni dəyişikliklər gətirdi. Təhsil sistemi də bu dəyişikliklərdən kənarda qalmadı. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında və dövlət-siyası quruculuğunda gedən əsaslı dəyişikliklər təhsil islahatıdəyişikliklər zərurətini şərtləndirdi.

Təhsili beynəlxalq standartlara uyğunlaşdırmaq, müstəqil Azərbaycan Respublikasının təhsilini Avropa məkanına inteqrasiya etdirmək zərurəti ali hətsilin məzmununda əsaslı dəyişikliklərə səbəb oldu.

Bunu nəzərə alan Azərbaycan dövləti ali təhsil sahəsində ciddi irəliləyişə nail olmaq məqsədilə bir sıra direktiv sənədlər qəbul etdi. Bunların sırasına aşağıdakılar daxildir:

1. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı (53, 11-19).

2. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 31 yanvar 2008-ci il tarixli 2643 №-li Sərəncamı(52, 438).

3. “Ali təhsil Müəssisələrinin Nümunəvi Nizamnaməsi” (52, 548-563).

4. “Ali təhsil pilləsinin dövlət standartı və proqramı” (44, 52, 490-495).

5.“2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində İslahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 №-li Sərəncamı (52, 439).

6.“Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanunun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 06 mart 2000-ci il tarixli 346 №-li Sərəncamı (52, 435).

Respublikada ali təhsil sistemi 1993-cü ildən ikipilləli – bakalavriat, magistratura hazırlığı pilləsinə keçmişdir. Bu gün respublikanın əksər ali məktəbləri ali mütəxəssislərin hazırlığını 6 illik proqramlar üzrə (bakalavriat – 4 il, magistratura – 2 il) həyata keçirilir. Magistraturaya ilk qəbul 1997-ci ildə həyata keçirilmişdir. Həmin il Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Magistr hazırlığı haqqında” 15 №-li qərarına uyğun olaraq 1997/98-ci tədris ilindən ölkəmizdə ali təhsilin ikinci (magistr) pilləsinə keçilmişdir. Bununla bağlı 1997-99-cu illərdə müvafiq normativ-hüququ baza yaradılmışdır. Respublikada magistr hazırlığını həyata keçirmək məqsədilə bəzi sənədlər hazırlanmış və təsdiq olunmuşdur. Onların arasında Azərbaycan Respublikasında çoxpilləli təhsil sistemində magistr hazırlığı (magistratura)haqqında Əsasnaməni (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.02.97-ci il tarixli 15 №-li qərarı ilə təsdiq olunub) göstərmək olar. Magistr hazırlığı aparılan bütün istiqamətlər (ixtisaslaşmalar) üzrə magstr təhsil proqramları və tədris planları təsdiq edilmiş və müvafiq ali məktəblərdə müvəffəqiyyətlə tətbiq olunmuşdur. Bundan sonra isə “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”AR.NK-nın 2010-cu il 12 may tarixli 88 №-li qərarı ilə təsdiq edilmişdir (52, 497-499). Hazırda respublikamızın 39 ali məktəbində magistr pilləsi fəaliyyət göstərir. Magistratura pilləsində 10 min nəfərə yaxın tələbə təhsil alır.

Ali məktəblərdə mütəxəssislərin hazırlığının bütün istiqamətləri üzrə dövlət təhsil standartları, baza təhsil proqramları və tədris planları işlənib hazırlanmışdır (52, 489-495).

Təhsil qanununa uyğun olaraq ölkədə qeyri-dövlət təhsil müəssisələrini yaratmaq imkanları da açıldı.

Məlumdur ki, Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin tərkib hissələrindən biri təhsil sahəsində əməkdaşlıqdır. 1993-cü ildən etibarən müxtəlif ölkələr, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları ilə çoxtərəfli əməkdaşlıq genişlənir. Azərbaycan

Avropa regionu ölkələrində (1994-cü il), Cənubi-Şərqi Asiya regionu ölkələrində (1995-ci il) ali təhsil sahəsində diplom və elmi dərəcələrin qarşılıqlı təsdiqlənməsi haqqında Konvensiyalara, həmçinin YUNESKO və Avropa Şurasının birgə hazırladığı ali təhsil sahəsində dərəcələrin təsdiqlənməsi haqqında Avropa Konvensiyasına qoşulması (1997-ci il) ən mühüm nailiyyətlərimizdəndir. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin beynəlxalq əlaqələr sahəsində daha bir mühüm nailiyyəti də Respublika Prezidenti cənab İ.Əliyevin 22 may 2009-cu il tarixdə təsdiq etdiyi "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində İslahatlar üzrə Dövlət Proqramı" haqqında Sərəncam olmuşdur (52, 439).

Ali təhsil islahatının gedişatı və ilk nəticələrin təhlili həm islahatın strategiyası, həm də ali təhsil sisteminin bəzi sferalarının islahatlarının mürəkkəbliyi ilə bağlı olan bir sıra ciddi çatışmamazlıqları üzə çıxartdı.

Azərbaycanda ali təhsilin nüfuzu yüksəkdir. Ali məktəblərin tələbə qəbulu üzrə imkanları praktiki olaraq onlara olan tələbə tam cavab verir. Yüksək müsabiqə isə təhsil resurslarının çatışmaması ilə deyil, ali məktəbin və ya ixtisasın cəlbediciliyi ilə izah olunur.

Ali təhsil xidmətlərinin qiyməti inflyasiya səviyyəsini aşan templərlə inkişaf edir. Təhsil xidmətləri ayrı-ayrı ödənişli xidmətlər reytinqində nəqliyyat, kommunal, məişət və rabitə xidmətlərindən sonrakı yeri tutur. Son illər ödənişlə təhsil alan tələbələrin şəxsi vəsaitlərindən başqa, təhsil ocaqlarına büdcədənkənar mənbələrdən maliyyə vəsaitləri də daxil olmağa başlayıb. Bütün bunlar təhsilin çoxşaxəli maliyyələşdirmə sisteminin formalaşmasına gətirib çıxardı. Bu da büdcədən maliyyələşdirməsinin çatışmamazlığını qismən kompensasiya edir.

Əmək bazarında son illər diplomlu mütəxəssislərin məşğulluğunun artması hiss olunur. Bununla belə ali peşə təhsilli məzunların əksəriyyəti öz ixtisası üzrə işləyə bilmir.

Bolonya bəyannaməsinə müvafiq olaraq ölkədə ali təhsilin ikinci pilləsinin formalaşması "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda öz əksini dolğun və müfəssəl şəkildə tapmışdır. Bir neçə il öncə ali təhsilin ikinci pilləsinə keçid haqqında mövcud olan müxtəlif yanaşmalar tədricən aradan çxır.

Sosioloji tədqiqatların və nəşrlərin təhlili göstərir ki, Boloniya prosesinin digər müddəaları ilə müqayisədə üçpilləli hazırlığın tətbiqi getdikcə daha geniş yer alır. Belə keçidin obyektiv zərurət olmasını dərk edən ali məktəb mütəxəssislərinin əksəriyyəti bu məsələ ilə bağlı cidi işlər görürlər. Bu mükəmməl bakalavriat, magistratura və doktorantura konsepsiyalarının, tədris prosesinin təşkilinə və tədris metodikalarına yeni yanaşmaların olması ilə, ali təhsil pillələrinin varisliyindəki fasiləsizliklə, eləcə də ali məktəbdən sonrakı təhsilin bir-biri ilə uzlaşdırılması ilə bağlıdır.

Əgər Avropa ölkələrində gənclər orta məktəbdə Azərbaycanda olduğundan bir, iki, hətta üç il artıq oxuyurlar. Bu, Azərbaycan tələbələrini təliminin müddətini onların əcnəbi həmyaşıdları ilə müqayisədə sual altına alır. Bu da diplomların ekvivalentliyinin təsdiqlənməsi məsələsini mürəkkəbləşdirir. Təlimin müddətini mexaniki olaraq bir il artırmaq ümumi təhsil məkanı üzrə partnyorları tam qane edər. Hazırda ümumi orta təhsilin 12 ilə qaldırılması barədə fikirlər səsləndirilir. Lakin təlimin müddətinin tezliklə artırılması Azərbaycanın daxili tələblərinə heç də cavab vermir. Məktəb proqramları bundan heç nə qazanmır. Əksinə, bu kimi inzibati tədbir çoxlu sayda müxtəlif problemlərə səbəb ola bilər. Fikrimizcə, perspektivli ideya bakalavriat pilləsində daha uzunmüddətli təhsili saxlamaqdır. Bolonya sistemi buna imkan verir.

Məlum olduğu kimi, 2003-cü ilə qədər Bolonya prosesi iki pilləli təhsil kimi nəzərdən keçirilirdi. Lakin 2003-cü ildə Avropa ölkələrinin ali təhsilə görə məsul olan nazirləri Berlin Konfransında 3-cü pilləni, doktorantura pilləsini qəbul etmək barədə qərar qəbul ediblər. Konfransın Komitəsində bu maddə belə ifadə edilmişdir: "Avropa ali təhsil və Avropa tədqiqat məkanı arasında əlaqələri möhkəmlətmək zərurətini dərk edərək, eləcə də bütün Avropada ali təhsilin ayrımaz tərkib hissəsi kimi elmi araşdırmaların mühümlüyünü qeyd

edərək nazirlər ali təhsiliniki əsas müddətlərinin məhdudiyyətini genişləndirməyi və doktorantura pilləsini Bolonya prosesinin üçüncü dövrü qismində daxil etməyi zəruri sayırlar”. Avropa Universitetlər Assosiasiyasının Qratse konfransında (Avstriya, 2013-cü il) nümayəndələr əsasən Avropa Universitetlərinin rektorları doktorantura pilləsini üçüncü dövrü qismində tam tanımaq məqsədilə Avropa ölkələri hökumətlərinə müraciət etdilər (62; 78; 106).

4 illik bakalavriatın təsdiqlənməsi Avropa İttifaqı ölkələrinin gəncləri ilə müqayisədə unuversitetlərə daha gənc yaşlarında gələn Azərbaycan tələbələrinə püxtələşmə və kifayət qədər mükəmməl ali təhsil almaq imkanı verər. Bakalavriyatla müqayisədə isə magistratura həqiqətən də dərindən öyrənmə mərhələsi kimi qiymətləndirilə bilər. Filosofların dilində desək, ali təhsilin birinci və ikinci pilləsi arasındakı əsas fərq keyfiyyətli, nizamlı iş ilə yaradıcılıq arasındakı fərqlərdədir. Eyni zamanda bu, diplomların ekvivalentliyinin təsdiqlənməsi baxımından Azərbaycanda təlimin müddətinə olan narazılıqları da aradan qaldırar.

Ali təhsil haqqında diplomun nüfuzu, ali təhsilin uğurlu karyeraya doğru lazımi pillə statusu alması məktəb məzunlarını ali məktəblərə daxil olmağa təhrik edir. Məlumdur ki, Azərbaycanda ali məktəbin seçimi çox vaxt abituriyentin şəxsi meylləri və şüurlu qərarı ilə deyil, bəzən valideynlərinin təzyiqi, dostlarının rəyi ilə müəyyən olunur. Nəticədə məzunların əksəriyyəti ali məktəbi bitirdikdən sonra ixtisas üzrə işləmir. Bu ona görə baş vermir ki, onlar ixtisas üzrə iş tapa bilmirlər. Sadəcə, ali məktəbdə oxuyarkən onlar bu sahədə işləməyi heç planlaşdırmırdılar. Ali məktəbi onlar yalnız diplom almaq imkanı kimi qiymətləndirirdilər. Üç səviyyəli sistem isə xüsusi sahəni daha düşünülmüş formada, bakalavr səviyyəsində baza hazırlığını keçdikdən sonraseçməkdə köməklik edir.

Üç səviyyəli sistemin üstünlüklərinə aşağıdakıları aid etmək olar:

- tələbənin təhsil istiqamətini fərdi müəyyənləşdirmək imkanının olması;
- birpilləli sistemlə müqayisəd dövlətin vətənaşların ali təhsil almasına maliyyə xərclərinin azalması;
- şəxsiyyət tərəfindən maliyyə azadlığını, sosial status və peşəni daha erkən yaşlarında əldə etmək imkanı;
- Azərbaycan təhsilinin başqa ölkələr üçün cəlbediciliyinin artması.

Bolonya prosesi çərçivəsində Avropa ali təhsil sisteminin islahatlarının təhlili göstərir ki, əvvəllər ali təhsilin mütəxəssis hazırlığının monosistemi mövcud olan ölkələrdə, bakalavr pilləsinin məzumlarının 90%-dən çoxu magistraturada təhsilini davam etdirir. Başqa sözlə, əmək bazarına bakalavr diplomlu mütəxəssislərin axını gözləniləndən çox-çox azdır. Əmək bazarında məzunların hazırlıq səviyyəsindən ehtiyat edilmiş, əksər işlə təmin edənlər bakalavr diplomuna şübhə ilə yanaşırlar. Əvvəllər Azərbaycanda da bakalavr pilləsinə tam ali təhsil pilləsi kimi yanaşılmamış, lakin yeni təhsil qanunu qüvvəyə minəndən sonra bu problem aradan qaldırılmışdır.

Əmək bazarında bakalavr dərəcəsinin təsdiqlənməsinə aid müvafiq qərarların qəbul edilməsi mütəxəssislər hazırlığının ikipilləli sisteminin qəti tətbiqi yolunda mühüm problemlərdən biridir. Əslində elə gənclərin özü də bakalavra tələbin az olması üzündən daha iki il oxuyub standart mütəxəssis diplomu almağa üstünlük verirlər. Bütün bunların nəticəsindəBolonya prosesinin tələblərinə zidd olaraq ali təhsilin bakalavr pilləsinin nüfuzu azalır. Lakin bu çatışmamazlıqlar müvəqqəti xarakter daşıyır və düşünülmüş dövlət siyasəti tərəfindən aradan qaldırılır.

Üç səviyyəli ali təhsilin təşkili mahiyyət etibarilə çox praqmatikdir. Belə sistemdə postsənaye cəmiyyətinin bütün üzvlərinin daimi biliklərini artırmağa və yeniləşdirməyə çox müxtəlif informasiya imkanları açılır. Üc səviyyəli sistem məhz unuversitet təhsilinin xarakterinə uyğun gəlir. Çünki onun əsas məqsədi peşə mobilliyinə yüksək tələblər şəraitində işləməyə hazır olan, stereotiplərdən uzaq olmağı və yeni ideya və qərarları verməyi bacaran

geniş təhsilli insanları hazırlamaqdır. Elmlərin qovuşuğunda da mütəxəssisləri yetişdirmək problemi asan həll oluna bilər. Bu müxtəlif profilli ümumi və ixtisaslaşmış təhsili kombinasiya etməyə imkan verər (məsələn, iqtisadçının hazırlanması magistr-hüquqşünasın hazırlanması ilə, bakalavr-riyaziyyatçının hazırlanması magistr-iqtisadçının hazırlanması ilə bir araya gətirilə bilər). Azərbaycan Diplomatiya Akademiyasının magistr hazırlığı pilləsində bu prosesin gedişi aydın hiss olunmaqdadır.

Ali təhsilin üç səviyyəli strukturunun tətbiqi məsələləri üzrə mövcud analitik materiallar sübut edir ki, bakalavr dərəcəsi ən azı diplomlu mütəxəssis hazırlığının baza hissəsi kimi əksər Azərbaycan ali məktəbləri tərəfindən (Tibb təhsili istisna olmaqla) qəbul edilmişdir. Magistr proqramları isə hələ də, işlənməkdə və təkmilləşdirilməkdədir. Magistr proqramları xarici mühitin təsirlərinə daha həssasdır. Təhsil Qanununa əsasən Azərbaycanda magistraturanın statusu ali məktəb çərçivəsində dəqiq təyin olunmuş ali təhsil sistemi çərçivəsində yeri dəqiqləşdirilmişdir. Magistrlərin hazırlığı proqramları bakalavr hazırlığı proqramlarından əhəmiyyətli dərəcədə fərqlənir. Bir tərəfdən, magistratura ənənəvi olaraq elmi kadrların hazırlanması kimi nəzərdən keçirilir. Digər ətrəfdən, Bolonya bəyannaməsi ali təhsilin bu səviyyəsinin vəzifələrini əhəmiyyətli şəkildə genişləndirir.

Magistr proqramlarına verilən tələblərin səviyyəsi də müəyyənləşdirilmişdir. Lakin nə ali məktəb rəhbərliyi, nə də müəllimlər arasında magistr proqramlarını bakalavr proqramların dan fərqləndirən cəhətlər haqqında vahidlik yoxdur. Ali məktəb tələbələrini hər cür həyat və peşə situasiyalarna hazır etmək cəhdləri bakalavr proqramlarının həddindən artıq yüklənməsinə gətirib çıxarır. Bununlada bakalavriat məzunlarının işə düzəlmək perspektivləri daralır, onların təlimi davam etdirmək üçün magistraturaya axını güclənir.

Beləliklə, ali məktəbin magistr pilləsinin tətbiqi ilə bağlı olan dəyişiklikləri transformasiya dəyişiklikləri adlandırmaq olar. Onlar ali təhsilin ən müxtəlif tərəflərinə toxunur və ölkəmizdə gedən radikal və sürətli dəyişikliklərlə bağlıdır. Bütün bunlar sadəcə müəyyən proseslərin təkmilləşdirilməsi və ya yeni fəaliyyət növlərinə keçid deyil, ail məktəbin strategiyasının özünə, onun məqsəd və missiyasına yenidən baxılmasıdır.

**Ədəbiyyat**


1. Ağayev Ə.Ə. Azərbaycan elmi-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri. Bakı: Avropa, 2005, 288 s.
2. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı:Adiloğlu,2006,138 s.
3. Ağamalıyev R. Azərbaycantəhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı: Təhsil, 1998, 375 s.
4. Ali təhsil müəssisələrində kreit sistemi ilə tədrisin təşkili barədə nümunəvi əsasnamə. Bakı: ADPU, 2009, 5 s.
5. Az. Res. ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında Az. Res. Prezidentinin sərəncamı. “Azərbaycan” qəz., Bakı, 2008, 1 fevral
6. Azərbaycan Respublikasının Təhsil qanunvericiliyinin külliyyatı.Bakı:Çaşıoğlu, 1999, 65 s.
7. Azərbaycan Respublikasınıntəhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999, 65 s.


## СТРУКТУРНЫЕ ИЗМЕНЕНИЯ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА

***Мамедова Айтен Рафат кызы***

***Резюме***


В целях необходимости соответствия образования к международным стандартам, интегрирования образования независимой Азербайджанской Республики в европейское пространство привело к коренным изменениям в содержании высшего образования.

Значимость высшего образования в Азербайджане высок. Возможности приема

учащихся в высшие учебные заведения практически полностью отвечают предъявляемым к ним требованиям. Высокий конкурс объясняется не недостатком образовательных ресурсов, а престижностью данного вуза или специальности.

В рамках двухуровневой системы высшего образования легче обеспечить межпредметную интеграцию в подготовке специалистов. Подготовка бакалавров осуществляется по одному направлению специализации. А магистерская программа, созданная на стыке различных областей более чувствительна к изменениям на рынке труда.

## STRUCTURAL CHANGES IN THE HIGHER EDUCATION SYSTEM OF AZERBAIJAN

***Mamedova Ayten Rafat***

***Summary***

In order to ensure the conformity of education to international standards, the integration of education of the independent Azerbaijan Republic into the European space has led to fundamental changes in the content of higher education.

The importance of higher education in Azerbaijan is high. The possibilities for enrolling students in higher educational institutions almost completely meet the requirements for them. High competition is explained not by the lack of educational resources, but by the prestige of this university or specialty.

Within the framework of a two-level system of higher education, it is easier to ensure interdisciplinary integration in the training of specialists. The preparation of bachelors is carried out in one direction of specialization. A master's program created at the intersection of various fields is more sensitive to changes in the labor market.

***Rəyçi: p.ü.f.d..Nəbiyeva Təhminə Ələmdar qızı***
***Ümumi pedaqogika kafedrasının 11 yanvar 2023-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olmatarixi 02 fevral 2023-cü il***